

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 35 (20.936)

22 fevral 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir

Fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: "Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan sosial-iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında iqtisadi həyatın bütün sahələrində olduğu kimi, tikinti sektorunda da dinamik inkişaf tempi müşahidə olunur. Qəbul olunmuş dövlət proqramlarında nəzərdə tutulan tədbirlər, həyata keçirilən irimiqyaslı layihələr tikinti-abadlıq işlərinin həcminin ildən-ilə artmasına, yeni iş yerlərinin açılmasına, məşğulluq probleminin aradan qalxmasına, əhalinin rifah halının yaxşılaşmasına səbəb olur.



Qeyd olunanlar bir daha göstərir ki, tikinti sektoru iqtisadiyyatımızda xüsusi rola malikdir. Ona görə də tikintidə keyfiyyət və təhlükəsizlik məsələləri ciddi nəzarətə götürülməlidir. Tikinti sektorunda işlərin keyfiyyətlə aparılması, əməyin təşkili və təhlükəsizlik qaydalarına əməl olunması ilə bağlı Ali Məclisdə iki dəfə – 2011 və 2012-ci illərdə müşavirə keçirilmiş, geniş müzakirələr aparılmış, aidiyyəti orqanlar qarşısında konkret vəzifələr qoyulmuşdur. Ötən müddət ərzində bu sahədə bir çox işlərin görülməsinə baxmayaraq, hələ də bəzi çatışmazlıqlar mövcuddur. Aparılan yoxlamalar zamanı son illər istifadəyə verilmiş yeni tikililərin çoxunda nöqsan və çatışmazlıqlar aşkara çıxarılmışdır. Bu, onu göstərir ki, tikinti aparan təşkilatlar tərəfindən laqeydliyə yol verilir və tikinti zamanı təsdiq edilmiş standartlara əməl olunmur. Keyfiyyətə xüsusi diqqət yetirilməməsi, yaxud tikilənlərin lazımi qaydada qorunmaması səbəbindən istifadəyə verildikdən sonra onların bir çoxunda təmirə ehtiyac yaranır".

Müşavirədə Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov və Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış etmişlər.

Aidiyyəti təşkilatlara müvafiq tapşırıqlar verən Ali Məclisin Sədri demişdir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və tikinti təşkilatları ayrılan maliyyə vəsaitindən səmərəli istifadəni təmin etməli, həyata keçirilən tikinti-abadlıq işlərində keyfiyyət amilinə nəzarəti artırmalı, tikinti və dizayn işlərində milli ornamentlərdən istifadəyə xüsusi diqqət yetirməlidirlər. Artıq xərclərin qarşısının alınması və təkrar təmir işlərinə yol verilməməsi üçün su, kanalizasiya, yol, elektrik, qaz və rabitə xətlərinin çəkilişi ilə məşğul olan təşkilatların fəaliyyətində əlaqələndirmə və ardıcıllıq təmin olunmalıdır. Tikinti təşkilatlarının rəhbərləri inşaat işlərinin yerinə yetirilməsində, su, kanalizasiya, qaz xətlərinin çəkilişlərində, əsasən, yerli istehsal məhsullarına üstünlük verməli, keyfiyyət sertifikatı olmayan xarici materialların istifadəsinə son qoyulmalıdır. Tikinti obyektləri layihələndirilərkən ərazinin seysmiklik dərəcəsi düzgün müəyyənləşdirilməli, buna dair müvafiq sənədlər olmadan tikinti layihələndirilməməli və inşaat işləri aparılmamalıdır. Tikinti aparan təşkilatın rəhbəri obyektin tikintisinə başlamazdan əvvəl tikinti sahəsinin sanitar, yanğın, ekoloji təhlükəsizliyinə, yaxınlıqdakı mühəndis və nəqliyyat kommunikasiyalarının və tikililərin təhlükəsizliyinin təmin edilməsinə, təmir-tikinti aparılan yerlərdə xüsusi işarələrin qoyulmasına nəzarəti gücləndirməlidir.

Qeyd olunmuşdur ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi və Nəqliyyat Nazirliyi ilə birlikdə yolların və yük avtomobillərinin standartlara uyğun istismarını təmin etmək üçün normadan artıq yüklənmənin qarşısını almalı, texnikaların saz vəziyyətdə olmasına nəzarət artırılmalı, Fövqəladə Hallar Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birlikdə yerli və idxal edilən tikinti material və konstruksiyalarının keyfiyyətli olmasına nəzarəti gücləndirməli, həmçinin avadanlıqların, maşın və mexanizmlərin təhlükəsizlik tələblərinə uyğunluğunu nəzarətdə saxlamalıdır.

Fövqəladə Hallar Nazirliyi Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin fəaliyyətini gücləndirməli, inşaat işləri zamanı tikinti norma və qaydalarının tələblərinə, razılaşdırılmış və təsdiq edilmiş memarlıq və tikinti layihələrinin icrasına əməl edilməsinə nəzarəti artırmalıdır. Tikintini aparan və nəzarət edən məsul şəxslərin müvafiq ixtisasa malik olmasını təsdiq edən sənədlərin mövcudluğunu diqqət mərkəzində saxlamalıdır. Bununla yanaşı, tikintilərdə yüksək təhlükə mənbəyi olan mexanizm və avadanlıqların istifadədən əvvəl sınaqdan və texniki təhlükəsizlik ekspertizasından keçirilməsi davam etdirilməlidir. Həmçinin Fövqəladə Hallar Nazirliyi Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birlikdə tikinti, bərpa, yenidənqurma və əsaslı təmir obyektlərinin konstruktiv möhkəmlilik və davamlılıq, seysmik dayanıqlılıq və təhlükəsizlik tələblərinə cavab verməsi üçün təsirli tədbirlər görməlidir.

Ali Məclisin Sədri tapşırmışdır ki, Dövlət Gömrük Komitəsi muxtar respublikada istehsal olunan tikinti material və avadanlıqların xaricdən gətirilən eyniadlı keyfiyyətsiz məhsullarından haqsız rəqabətindən qorunması üçün bu məhsulların idxalının qarşısını almaq məqsədilə həyata keçirilən tədbirlərin təsirliliyini artırmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tikinti işçilərinin əmək şəraitinin və iş yerlərinin əməyin mühafizəsi və təhlükəsizliyi qaydalarına uyğun olmasına, işəgötürənlər tərəfindən işçilərin fərdi mühafizə vasitələri və xüsusi geyimlə təmin edilməsinə nəzarəti gücləndirməlidir. Əməyin mühafizəsi üzrə ixtisasartırma kurslarının fəaliyyətinin səmərəliliyinin artırılmasına diqqət yetirməli, mülkiyyət formasından asılı olmayaraq, bütün tikinti rəhbərlərinin və işəgötürənlərin bu kurslara cəlb olunmasını təmin etməli, istehsalat sahələrində çalışan işçilərin müvafiq xüsusi geyim və fərdi mühafizə vasitələri ilə təmin olunmasına nəzarət etməli, texniki təhlükəsizlik qaydalarına əməl olunması iş normasına çevrilməlidir.

Müşavirədə Nəqliyyat Nazirliyi, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti və Naxçıvan Muxtar Respublikasının Prokurorluğu üçün də konkret vəzifələr müəyyənləşdirilmiş və qeyd olunmuşdur ki, ağır yüklərin daşınması zamanı daxili avtomobil yollarının sıradan çıxmasının qarşısını almaq məqsədilə tikinti təşkilatları ilə birlikdə istifadə olunan bütün ağır yüklərin və tikinti materiallarının dəmir yolu vasitəsilə daşınması bundan sonra da davam etdirilməlidir. Naxçıvan Muxtar Respublikasının Prokurorluğu sənaye, energetika, nəqliyyat, rabitə, tikinti və tikintiatrafı ərazilərdə müəyyən olunmuş təhlükəsizlik tələblərinə əməl olunmasına, işçilərin xüsusi geyim və fərdi mühafizə vasitələri ilə təmin olunmasına və onlardan istifadə edilməsinə, eləcə də baş verən ölüm və ya digər istehsalat xəsarətlərinin araşdırılmasına və tədbir görülməsinə nəzarəti gücləndirməli, profilaktik işin aparılmasını təmin etməlidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işçilərin hüquqlarının qorunması məqsədilə qanunvericiliyə uyğun olaraq, əmək müqavilələrinin bağlanmasına diqqəti artırmalıdır. Əmək müqavilələrinin muxtar respublika üzrə qeydiyyat bazasının yaradılması təmin edilməlidir. Səhiyyə Nazirliyi müvafiq qurumlarla birlikdə tikinti obyektlərində sağlam sanitariya-gigiyena şəraitinin yaradılması, bədbəxt hadisələrdən zərərçəkənlərə hadisə yerində ilkin tibbi yardım göstərilməsi qaydalarının öyrədilməsi ilə bağlı tədbirləri davam etdirməli, istehsalatda xəsarət alaraq tibb müəssisələrinə gətirilənlər və ya müraciət edənlər haqqında vaxtında aid orqanlara məlumat verməlidir.

Ali Məclisin Sədri qarşıdakı dövrlərin tikintidə keyfiyyət dövrü olması və təhlükəsizlik tədbirlərinin ciddi nəzarətə götürülməsi vacibliyini bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ədliyyə Nazirliyi növbəti seminarı Kəngərli rayonunda keçirib

*Kəngərli Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə seminar keçirilib. Seminarda vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı zamanı qanunvericiliyin tələblərindən danışılıb.*

Tədbiri giriş sözü ilə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Cəfərov açaraq bildirib ki, Kəngərli rayonunda inzibati ərazi dairəsi üzrə nümayəndəliklər üçün müasir standartlara uyğun iş şəraiti yaradılıb. Yaradılan şəraitin müqabilində icra nümayəndələri yüksək iş keyfiyyəti nümayiş etdirməli, qanunvericiliyin tələblərinə əməl edilməsinə maksimum səy göstərməlidirlər.

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev məruzə ilə çıxış edərək bildirib ki, qanun üzrə hüquq və vəzifələrin meydana gəlməsi, dəyişdirilməsi və onlara xitam verilməsinə səbəb olan hadisələr və vətəndaşların hərəkətləri vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vasitəsilə rəsmiləşdirilir. Muxtar respublika Ədliyyə Nazirliyinin rayon və şəhər Qeydiyyat şöbələri ilə yanaşı, inzibati ərazi dairəsi üzrə nümayəndəliklər də doğumun, nikahın bağlanması və ölümün qeydiyyatını aparır. Yerlərdə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının aparılması zamanı qanunvericiliyin tələblərinin uyğunluğunu öyrənmək məqsədilə mütəmadi olaraq nazirlik tərəfindən rayon icra hakimiyyətləri ilə birlikdə yoxlamalar keçirilib. Keçirilən yoxlamalar zamanı aşkar olunan nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülüb, bu haqda rayon icra hakimiyyətləri məlumatlandırılıb.

Qeyd edilib ki, Kəngərli rayonunda doğum, nikah və ölümün qeydiyyatı 9 icra nümayəndəliyi tərəfindən rəsmiləşdirilir. 2009-2013-cü illər ərzində Kəngərli rayonunun icra nümayəndəlikləri tərəfindən doğum, nikah və ölümün qeydiyyatı ilə bağlı 1752 əməliyyat aparılıb. Onlardan 224 əməliyyat 2013-cü ilin payına düşüb. Hüquqi maarifləndirmə məqsədilə 2009-2013-cü illər ərzində Kəngərli rayonunda icra nümayəndələri üçün 14 dəfə seminar təşkil olunub. Nazirlik tərəfindən bütün icra nümayəndələri müvafiq reyestr, akt qeydləri və şəhadətnamələrlə vaxtında təmin edilib. Kəngərli rayonunun icra nümayəndəliklərində vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vəziyyətinin öyrənilməsi məqsədilə 2009-2013-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 10 dəfə yoxlama keçirilib, aşkar olunan nöqsanların aradan qaldırılması üçün icra nümayəndələrinə metodik köməkliklər göstərilib. Lakin bütün maarifləndirmə tədbirlərinə və yoxlamalara baxmayaraq, icra nümayəndəliklərinin vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı sahəsindəki fəaliyyətlərində hələ də bəzi nöqsanlar qalmaqdadır. Belə ki, Qarabağlar və Xok kəndlərinin icra nümayəndələri göstərilən metodik köməklik və keçirilən seminarlara baxmayaraq, kargüzarlıq sahəsində fəaliyyətlərində müəyyən nöqsanlara yol veriblər. Bu nöqsanların aradan qaldırılması və bir daha təkrar edilməməsi üçün Qeydiyyat Şöbəsinin rəisi icra nümayəndələri ilə bağlı işini qanunvericiliyin tələbləri səviyyəsində təşkil etməlidir. Hər bir icra nümayəndəsi işinə məsuliyyətlə yanaşmalı, qeyd olunan nöqsanlardan nəticə çıxarmalı və fəaliyyətində dönüş yaratmalıdır. Bu sahədə Şahtaxtı və Yurdçu kəndlərinin icra nümayəndəliklərinin fəaliyyəti nümunəvi sayıla bilər. Bundan başqa, hər bir icra nümayəndəsi fəaliyyətini qanunvericiliyə uyğun təşkil etməli, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin, kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə əməl etməli və vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra müvafiq əməliyyatı rəsmiləşdirməlidir. Xüsusilə nikah qeydiyyatı zamanı müraciət etmiş şəxslərin iştirakı təmin edilməlidir. Hər bir icra nümayəndəsi qeyd olunanlardan nəticə çıxarmalı və fəaliyyətini qanunvericiliyə uyğun təşkil etməlidir. Gələcəkdə qanun pozuntusuna yol vermiş icra nümayəndələri haqqında müvafiq cəza tədbirləri görüləcəkdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Səbuhi HÜSEYNOV**

**Ulu öndər Heydər ƏLİYEV:** ***Gömrük orqanlarının, gömrük xidmətinin dövlətin iqtisadiyyatında, ümumiyyətlə, dövlətçilikdə çox böyük rolu vardır. Bu baxımdan gömrük xidməti mühüm əhəmiyyət kəsb edir.***


Naxçıvan Şəhər Gömrük İdarəsi

*24 fevral Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yarandığı gündür*

# Muxtar respublikada gömrük orqanlarının maddi-texniki bazası gücləndirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il 24 fevral tarixli Qərarına əsasən, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi yaradılmış, muxtar respublikada vahid mərkəzdən idarə olunan gömrük siyasətinin tətbiqinə başlanmışdır. Bu qərar regionda gömrük orqanlarının vahid mərkəzdən idarə olunması ilə idarəetmənin təkmilləşdirilməsinə, yerli şərait nəzərə alınmaqla gömrük xidmətinin fəaliyyətinin düzgün istiqamətlənməsinə şərait yaratmışdır.***

Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ulu öndərimiz Heydər Əliyevin xüsusi dövlətçilik səriştəsi və şəxsi nüfuzu sayəsində İran ərazisindən keçməklə Azərbaycanın digər bölgələri ilə nəqliyyat əlaqəsi qurulmuş, Sədərək-Dilucu və Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqələri yaradılmışdır. Bir sözlə, 1992-1993-cü illər muxtar respublikada gömrük orqanlarının və sərhəd-keçid məntəqələrinin yaranma və formalaşma mərhələsi kimi böyük əhəmiyyət daşıyır.

Ümummilli lider Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə, eləcə də muxtar respublikamızda gömrük xidməti işi yeni inkişaf mərhələsinə qədəm qoymuş, gömrük infrastrukturu təkmilləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gömrük xidmətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlər mühüm əhəmiyyət kəsb edir. Son illər qonşu Türkiyə Respublikası və İran İslam Respublikası ilə imzalanmış sazişlər, həyata keçirilən rəsmi səfərlər sayəsində xarici ticarət əlaqələrinin əhatə dairəsi daha da genişlənmişdir. Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinə beynəlxalq statusun verilməsi, Sədərək və Culfa gömrük sərhəd-buraxılış məntəqələrində 24 saatlıq, Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqəsində 12 saatlıq iş rejiminin tətbiq edilməsi gömrük işi sahəsindəki hərtərəfli inkişafın əyani göstəricisidir.

2001-ci ildə Naxçıvan Şəhər Gömrük İdarəsinin və 2004-cü ildə Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsinin yaradılması nəticəsində muxtar respublika gömrük orqanlarının strukturu daha da genişləndirilmiş, gömrük infrastrukturunun yenidən qurulması və maddi-texniki bazanın müasir tələblər səviyyəsində formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Beynəlxalq standartlar və yerli şərait nəzərə alınmaqla 2007-ci ildə Culfada, 2009-cu ildə isə Şahtaxtıda müasir gömrük kompleksləri tikilib istifadəyə verilmişdir. 2012-ci il mayın 30-da isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin himayəsi ilə Naxçıvan Şəhər Gömrük İdarəsi üçün yeni kompleks istifadəyə verilmişdir. Kompleksdə inzibati bina, yük xətti, rəsmiləşdirmə binaları və gömrük laboratoriyası, kinoloji xidmət yaradılmış, müasir rentgen qurğuları quraşdırılmışdır. Kompleksin istifadəyə verilməsi ilə daxili və beynəlxalq yükdaşımaları həyata keçirən nəqliyyat vasitələrinin şəhərə girmədən hərəkəti təmin edilmiş, xarici ticarətin inkişaf etdirilməsi, idxal-ixrac prosedurunun sadələşdirilməsi və ümumilikdə, gömrük işinin keyfiyyətinin artırılmasına nail olunmuşdur. Gömrük infrastrukturunun yeniləşdirilməsi sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq hazırda Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi üçün zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət inzibati binada son tamamlama işləri aparılır, “Naxçıvanterminalkompleks” Birliyi üçün yeni kompleksin tikintisi davam etdirilir.

Yüksək maddi-texniki bazaya malik olan muxtar respublikanın gömrük orqanlarının beynəlxalq əməkdaşlıq əlaqələri də getdikcə genişlənir. 2012-ci ilin oktyabr ayında Naxçıvanda türkdilli dövlətlərin gömrük xidməti rəhbərlərinin görüşü bu sahədə aparılan məqsədyönlü işlərin daha bir göstəricisidir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələr arasında ticarətin və sərhəd keçidinin sadələşdirilməsinə, buraxılış məntəqələrinin infrastrukturunun təkmilləşdirilməsinə, malların və nəqliyyat vasitələrinin, sərnişinlərin sərhəddən keçidinin sürətləndirilməsinə, narkotiklərin qanunsuz dövriyyəsinə və qaçaqmalçılığa qarşı mübarizə sahələrində əməkdaşlığa dair razılıq əldə edilmiş, türkdilli dövlətlərin gömrük xidməti rəhbərləri tərəfindən “Naxçıvan bəyannaməsi” qəbul olunmuşdur.

Son illərdə gömrük işinin səmərəliliyini artırmaq məqsədilə informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanlarının genişləndirilməsi, gömrük orqanlarında nəzarət və rəsmiləşmənin avtomatlaşması xidmətin keyfiyyətini xeyli yüksəltmişdir. Bu gün muxtar respublikanın bütün gömrük orqanlarında Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi tətbiq edilir. Bu sistem vasitəsilə malların və nəqliyyat vasitələrinin qeydiyyatı və gömrük rəsmiləşdirilməsi, gömrük əməliyyatları üzrə maliyyə fəaliyyətinin tənzimlənməsi, gömrük sahəsində hüquqpozma faktlarının qeydiyyatı, statistik məlumatların formalaşması və analitik təhlilin aparılması, gömrük sistemində sənəd dövriyyəsinin təmin edilməsi prosesləri tamamilə avtomatlaşdırılmışdır. Sürətli məlumat mübadiləsini təmin etmək üçün fiber-optik şəbəkə bütün gömrük orqanlarını əhatə edən formada qurulmuşdur. İş prosesinin izlənilməsi və mövcud vəziyyətə operativ müdaxilə edilməsi üçün gömrük orqanlarında müasirtipli videomüşahidə kameraları quraşdırılmışdır. Gömrük orqanlarının sərnişin və yük xətlərində kiçikqabaritli yüklərə nəzarəti həyata keçirməyə imkan verən rentgen nəzarət qurğularının qurulması bu istiqamətdə atılan növbəti uğurlu addım olmuşdur. Maddi-texniki bazanın beynəlxalq normalar səviyyəsində təkmilləşdirilməsi sahəsində görülən işlərin davamı olaraq, Culfa və Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqələrində X-ray rentgen nəzarəti qurğusu qurulmuşdur. Sədərək gömrük sərhəd-buraxılış məntəqəsində isə bu qurğunun qurulması istiqamətində işlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən, muxtar respublikanın gömrük orqanlarında da elektron hökumətə keçid istiqamətində məqsədyönlü tədbirlər görülmüş, komitənin yeni internet saytı yaradılmışdır. Məqsəd gömrük idarəetmə mexanizmlərinin səmərəliliyinin artırılmasına, qərarların qəbulu prosesində şəffaflığın təmin edilməsinə, kargüzarlıq işinin və sənəd dövriyyəsinin elektron formada həyata keçirilməsinə, elektron imzanın tətbiqinə nail olmaqdır. Son illər həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikanın gömrük orqanlarında eyniləşdirmə nömrəsinin verilməsi, sərnişin bəyannaməsinin tətbiqi, gömrük sərhəd-buraxılış məntəqələrindən keçiriləcək mallar və nəqliyyat vasitələrinin bəyan edilməsi, gömrük rəsmiləşdirməsinə başlamaq üçün müraciət və gömrük orqanlarında xidmət üçün ərizə qəbulu elektron formada həyata keçirilir.

Muxtar respublika iqtisadiyyatında müşahidə edilən sürətli iqtisadi inkişaf prosesi öz təzahürünü xarici ticarət əlaqələrində də tapır. Təcrübə göstərir ki, xarici ticarət fəaliyyətinin ölkənin iqtisadi inkişafına xidmət etməsi üçün onun tənzimlənməsi vacibdir. Müasir dövrdə belə fəaliyyətin əsas tənzimləyicisi kimi gömrük orqanları çıxış edir. Hər bir ölkənin gömrük siyasətinin başlıca məqsədi xarici ticarətin səmərəliliyinin yüksəldilməsindən, ondan daha yüksək fayda götürülməsinə nail olmaqdan və iqtisadi təhlükəsizliyin təmin edilməsindən ibarətdir. Artıq 2009-cu ildən ixracın həcmi idxalı üstələməklə xarici ticarət dövriyyəsində müsbət saldo yaranmışdır. İxrac əməliyyatlarının həyata keçirildiyi ölkələrin miqyasının ilbəil genişlənməsi müşahidə olunan mühüm yeniliklərdəndir. Təsadüfi deyil ki, xarici ticarət əlaqələrində iştirak edən dövlətlərin sayı beş il ərzində artaraq 45-ə çatmışdır.

Bu gün muxtar respublikanın gömrük orqanları hüquqpozma hallarına qarşı da ciddi mübarizə aparırlar. Muxtar respublikanın iqtisadi mənafeyinin və təhlükəsizliyinin təmin olunması məqsədilə əməliyyat- axtarış fəaliyyəti digər hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edilməklə daha da gücləndirilmişdir. Narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması gömrük orqanlarının hüquqpozmalara qarşı mübarizə sahəsindəki fəaliyyətinin prioritet istiqamətinə çevrilmişdir. Hal-hazırda iş prosesində avtomatlaşmanın tətbiq olunması gömrük sahəsində hüquqpozmalara qarşı mübarizənin keyfiyyətini və səmərəliliyini artırır.

*Naxçıvan Muxtar Respublikasının gömrük orqanları muxtar respublikanın inkişafının və iqtisadi təhlükəsizliyinin təmin olunmasında öz üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə çalışacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# Beynəlxalq Ana Dili Günü qeyd edilib

***Fevralın 21-də Naxçıvan Müəllimlər İnstitutunda Beynəlxalq Ana Dili Günü münasibətilə “Ana dili mənəvi kimliyimizdir” mövzusunda elmi-praktik konfrans keçirilmişdir.***

Konfransı giriş sözü ilə institutun rektoru, professor Oruc Həsənli açaraq qeyd etmişdir ki, bu gün ölkəmizdə ana dilinin qorunması, onun işləklik dairəsinin genişləndirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin 2013-cü il 9 aprel tarixli Sərəncamına əsasən, “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi bunun bariz ifadəsidir.

Vurğulanmışdır ki, bu gün muxtar respublikamızda da dövlət dil siyasəti uğurla həyata keçirilir. Son illər muxtar respublikamızda dilimizin saflığı və qorunması istiqamətində həyata keçirilən tədbirlər ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Bu gün istər danışıq, istərsə də yazı dilindən düzgün istifadə olunması, ana dilimizin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi, təbliğ olunması diqqət mərkəzində saxlanılır, muxtar diyarımızda Azərbaycan dilinin ən ali milli dəyər kimi saflığının qorunması, ifadə imkanlarının təbliği istiqamətində məqsədyönlü tədbirlər görülür.

Konfransda institutun tədris işləri üzrə prorektoru, professor Akif İmanlının “Ana dilinə dövlət qayğısı”, tərbiyə işləri üzrə prorektoru, professor Sədaqət Həsənovanın “Ana dili milliliyimizin ölçüsüdür” mövzularında məruzələri dinlənilmişdir.

Sonra institut tələbələrinin ifasında ana dilinə həsr olunmuş şeirlər bədii qiraət edilmişdir.

* * *

***Dünən 21 fevral – Beynəlxalq Ana Dili Günü münasibətilə Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında elmi-nəzəri konfrans keçirilib. Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Həsən Kərimov açıb.***

“Ana dili mənəvi kimliyimizdir” mövzusunda məruzə ilə çıxış edən Naxçıvan Müəllimlər İnstitutunun tərbiyə işləri üzrə prorektoru, filologiya elmləri doktoru, professor Sədaqət Həsənova bildirib ki, dünyada məhv olmaq təhlükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il fevralın 21-i “Beynəlxalq Ana Dili Günü” kimi qeyd olunur.

Dil ünsiyyət vasitəsidir, bununla yanaşı, dil millətin simasını səciyyələndirən amillərdən biri, bəlkə də, birincisidir. Xalqın taleyi, onun mənliyi, mənəviyyatı və mədəniyyəti olan dil cəmiyyətin təşəkkülü və inkişafı ilə birgə yaranır, tərəqqi edir.

Qeyd olunub ki, millətin dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam kütlənin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur. Əgər nəzərə alsaq ki, bu gün planetimizdə yaşayan minlərlə millət və etnik qrup sayı 200-dən çox olan dövlətlərin bayrağı altında cəmləşib və bu dövlətlərin rəsmi dövlət dillərinin sayı 70-i keçmir, onda hər hansı bir millətin öz dilinin öz dövlətində dövlət dili olmasının əhəmiyyətini dərk etmək o qədər də çətin olmaz. Bu mənada dilin dövlət dili statusu qazanması, həqiqətən, qürurverici tarixi hadisədir.

Azərbaycan dili bu tarixi hadisəni yaşayıb. Bu gün dilimizin dövlət statuslu dillər arasında olmasına görə ümummilli lider Heydər Əliyevə minnətdarıq. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması ana dilimizin gözəl bilicisi ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş uzaqgörən siyasətinin nəticəsidir.

Sonra Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktor müavini Rahilə Məmmədova, şöbə müdiri Yeganə Rüstəmova çıxış ediblər.

Sonda Naxçıvan Musiqi Kolleci tələbələrinin ifasında dilimizə həsr olunmuş şeirlər bədii qiraət edilib, “21 fevral Beynəlxalq Ana Dili Günüdür” adlı sərgiyə baxış olub.

# Sığorta fəaliyyətinə həsr olunmuş seminar

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində büdcədən maliyyələşən nazirlik, komitə, baş idarələrin, müəssisə və təşkilatların mühasibləri üçün sığorta fəaliyyətinin əhəmiyyəti, icbari və könüllu sığortalar, ayrı-ayrı sığorta növlərinin mahiyyəti haqqında seminar keçirilmişdir. Tədbiri Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Hikmət Cəfərov açaraq sığortanın əhəmiyyətindən danışmış, muxtar respublikamızda sığorta sahəsində qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində görülmüş və bundan sonra da görüləcək işlərdən bəhs etmişdir.

Seminarda Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov məruzə ilə çıxış edərək bildirmişdir ki, 30 yanvar 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə sığorta orqanları qarşısında sığorta fəaliyyətinin canlandırılması, əhalinin sığortaya etibarının artırılması üçün təsirli tədbirlər görülməsi vəzifəsi qoyulmuşdur. Dövlət Baş Sığorta Agentliyi 2014-cü ildə də icbari və könüllü formalarda bütün sığorta növlərinin inkişafı naminə qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışacaqdır.

Sonra seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

***Xocalı soyqırımı XX əsrin ən amansız faciələrindən biridir. Bəşər tarixində kütləvi insan qırğınları çox olub. Bunları da müxtəlif kateqoriyalara ayırıblar: təbii fəlakətlərin qurbanları, müharibə qurbanları, soyqırımı qurbanları. Təbii fəlakətlər nəticəsində həlak olanlarla bağlı qeyd etmək lazımdır ki, burada düzdür, insan üzülür, kədərlənir. Kədər, üzüntü var, ancaq düşmənçilik, nifrət duyğusu yoxdur. Bu hadisədə kimi məsul tutacağımızdan söhbət gedə bilməz.***

# Əsrin faciəsi: Xocalı soyqırımı

Müharibə hər hansı bir dövlətin və ya dövlətlərin, hətta şəxslərin imperialist siyasətinin, maraqlarının təzahürüdür. Ancaq ən azından müharibənin də öz qanunları var. Elan edilmiş müharibə var, elan olunmamış müharibə var. Lakin sivil insanlara qarşı şiddət tətbiq etmək, əliyalın insanları qətlə yetirmək, qoca, cavan, qadın, uşaq demədən insanları soyqırımına məruz qoymaq insanlıqdankənar bir hərəkətdir. Burada insanlar dil, din, milliyyət, soy-kök amilləri nəzərə alınaraq qətlə yetirilirlər. Xocalıda baş verənlər bunun ən bariz nümunəsidir.

Hər bir millətin, dövlətin özünün ideologiyası var. İdeologiya özünü açıqlamaq üçün daha çox təbliğata müraciət edər və istifadə etdiyi simvolların başında da şüarlar gələr. İdeoloqlar məhz təbliğat vasitəsilə özünün, öz millətinin haqlı, qarşısındakının isə haqsız olduğuna inandırmağa çalışırlar. Bununla birlikdə ideologiya rəhbər tutduğu proqram və prinsipləri tətbiq etmək üçün müəyyən vasitələrə sahib olmaq məcburiyyətindədir. Bu vasitələrin başında "güc və ya şiddət" gəlir. Yəni zor tətbiq etmək. Onun vəzifəsi, haqlı və ya haqsız, bütün hadisələri yeganə bir səbəbə bağlamaqdır. İdeologiyanın olması qəbahətli, pis şey deyil, ancaq elə ideologiyalar var ki, onların altında şizofrenlik, psixi xəstəlik yatır. Bu xəstəliyin izlərini "böyük Ermənistan" ideologiyasında da müşahidə etmək mümkündür. Ermənilər bu "ideologiya yolunda" ən böyük "maneənin" məhz türklər olduğunu düşünərək hər bir türkü öldürməkdən mənəvi zövq almışlar və alırlar. Hətta onlardakı nifrətin dərəcəsi o qədər yüksəkdir ki, düşüncələrinə görə, əgər terrordan daha şiddətli metod varsa, ermənilər onu tətbiq edə bilərlər. Bu artıq xəstəliyin dərəcəsinin miqdarını açıqca göstərir.

1992-ci ildə Xocalıda baş verən faciə ilk deyildi: 1905, 1906, 1917 və 1918-ci illərdə Xocalı 4 dəfə erməni təcavüzünə məruz qalmış, yandırılmış, talan edilmişdir. Sonra yenidən bərpa olunmuş və 5-ci dəfə – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə bura hücum olunmuş, soyqırımı törədilmişdir. Niyə Xocalı?

Ermənilərin Xocalını hədəfə almaqda əsas məqsədi Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan strateji əhəmiyyətli məntəqəni aradan qaldırmaq idi. Bu hadisə daha uzağa hesablanmış bir məqsəd idi. Əsas niyyət Dağlıq Qarabağı və Azərbaycanın digər torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və mübarizə əzmini qırmaq idi. Ermənilərin diqqətini Xocalıya cəlb edən önəmli səbəblərdən biri onun geostrateji mövqeyi idi. 7000 əhalisi olan Xocalı Qarabağ dağının silsiləsində, Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə hava limanı da məhz Xocalıda idi. Ermənilərin əsas istəklərindən biri buradakı hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi.

Dinc əhalinin, qocaların, qadınların, uşaqların amansızcasına qətlə yetirilməsi Azərbaycan xalqına psixoloji zərbə vurmaq məqsədi daşıyırdı. Məqsəd bütün Azərbaycan xalqında sarsıntı yarada bilmək, əhalidə "ermənilər qorxu, təhlükə mənbəyidir" imicini formalaşdırmaq idi.

Əldə olan faktlar onu deməyə imkan verir ki, Azərbaycan tarixinin ən ağrılı və acılı səhifələrindən biri olan Xocalı faciəsi tam olaraq bir soyqırımıdır. Günümüzdə hər hansı bir faciənin soyqırımı olaraq tərif edilməsi üçün saylara diqqət çəkilməkdə və əgər yüzlərlə insan məhv edilərsə, bunun soyqırımı olaraq xarakterizə oluna biləcəyi düşünülməkdədir. Bir gecədə 613 insanın qətl edildiyi Xocalı faciəsi soyqırımı cinayətidir. Çünki 9 dekabr 1948-ci ildə BMT tərəfindən qəbul edilən "Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Sözləşməsi"ndəki tərifdə müəyyənedici ünsür say deyil, millət, din, soy, ya da irq kimi xüsusiyyətlər üzərində qurulan bir qrupun sistematik və məqsədli olaraq tamamilə, ya da qismən məhv edilməsi planıdır. Ermənilərin Xocalıda törətdikləri cinayətlər BMT tərəfindən qəbul edilən bu sözləşmənin ikinci maddəsi ilə uyğunluq təşkil edir. Bu maddənin bəndlərində göstərilir:

*1. Əlaqədar qrup üzvlərinin (milli, etnik və dini olaraq) öldürülməsi;*

*2. Əlaqədar qrup üzvlərinin ruhi və fiziki səhhətlərinə zərər verilməsi;*

*3. Əlaqədar qrup üzvlərinin fiziki varlıqlarının ortadan qaldırılması.*

Məhz bu baxımdan ermənilərin Xocalıda törətdikləri vəhşiliklər insanların (qrupun) planlı və sistematik olaraq məhv edilməsinə istiqamətlənmiş məqsəd və cinayətlərin təzahürləridir. Xocalı faciəsinin soyqırımı olaraq tanınması üçün BMT-yə, beynəlxalq məhkəməyə hər dəfə müraciət olunmalı və bu müraciətdə tutarlı sübutlar çərçivəsində soyqırımını gerçəkləşdirən bütün dövlət adamlarının, hərbçilərin və iştirak edən digər məsul şəxslərin adları açıq şəkildə göstərilməli və cəzalandırılmaları tələb edilməlidir. BMT-nin soyqırımı sözləşməsinin 3-cü və 4-cü maddələrinə uyğun olaraq, soyqırımına rəvac verən hərəkətlərdən birini belə, həyata keçirən, gerçəkləşdirilməsi üçün razılığa gələn, ictimaiyyəti hədəf alan bu cür hərəkət və fəaliyyətləri qızışdıran, təşviq edən, eyni zamanda bu fəaliyyətləri əvvəlcədən planlaşdıran və hədəfləyən, istər icraçı, istərsə də rəsmi və ya qeyri-rəsmi şəxs olaraq cinayətlərdə iştirakı təsdiqlənən hər kəsin cəzalandırılması vacibdir.

***Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycanda son illərdə çox işlər görülüb. Lakin səylər daha da artırılmalıdır. Ermənilərin "quzu cildinə girmiş canavar" obrazını ifşa etmək üçün üzərimizə böyük məsuliyyət düşür. Azərbaycanın erməni saxtakarlığı və cinayətləri ilə bağlı qarşılaşdığı problemlər açıqca ortaya qoymuşdur ki, yeni strategiyaların müəyyən edilməsi və təbliğat işinin gücləndirilməsi artıq şərtdir. Dövlət başçısının "Xocalıya ədalət" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" 2014-cü il 14 fevral tarixli Sərəncamı məhz buna hesablanıb.***

**Emin ŞIXƏLİYEV**
***AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent***

# Xocalı faciəsi qurbanlarının xatirəsi anılır

Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında Xocalı faciəsinin 22-ci ildönümü münasibətilə keçirilən "Əsrin faciəsi" adlı tədbirdə əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Yığıncaqda çıxış edən təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev Xocalı soyqırımından, ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərdən danışmışdır.

Qeyd olunmuşdur ki, Xocalı faciəsi xalqımızın milli azadlıq ruhuna qarşı misligörünməmiş bir təcavüz olmaqla yanaşı, həm də tariximizin qəhrəmanlıq səhifəsidir. O gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, müstəqillik və azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya nümayiş etdirmişdir. Bu faciədən danışarkən o vaxt ölkəyə rəhbərlik edənlərin mənəvi məsuliyyətini də qeyd etmək lazımdır. Belə ki, həmin dövrdə dövlət orqanları Xocalının etibarlı müdafiəsini təşkil etmək üçün heç bir əməli tədbir görməmiş, şəhərin sakinlərini taleyin ümidinə buraxmışdılar.

Bildirilmişdir ki, xalqımızın dahi oğlu Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra bu faciəyə hüquqi-siyasi qiymət verilmişdir.

Bu gün Azərbaycan dövləti erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Xocalı faciəsinin soyqırımı kimi tanınması üçün məqsədyönlü fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev torpaqlarımızın azad olunması, qaçqın və məcburi köçkünlərimizin öz doğma yurdlarına qayıtması, Ermənistan hərbi birləşmələrinin ərazilərimizdən qeyd-şərtsiz çıxarılması istiqamətində ardıcıl iş aparır. Lakin ölkə başçısının dəfələrlə bəyan etdiyi kimi, danışıqlar prosesi belə davam edə bilməz. Qürbət Rzayev ölkə başçısının bu sözlərini xatırlatmışdır: ***"Biz azərbaycanlılara qarşı ermənilərin törətdiyi təcavüz və soyqırımın dünya dövlətlərinin parlamentləri, beynəlxalq təşkilatlar tərəfindən tanınmasına və pislənməsinə çalışmalıyıq... Biz sülh şəraitində yaşamaq, ölkəmizi inkişaf etdirmək, tarixi ədalətin və həqiqətin bərpa olunmasını, işğal və soyqırım siyasəti həyata keçirənlərin tanınmasını və ifşa edilməsini istəyirik"***.

Tədbirdə Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı Qadınlar Şurasının sədri Könül İsmayılova və təşkilatın Heydər Əliyev adına Gənclər Birliyinin sədri Elvin Məmmədov çıxış etmişlər.

Tədbirin sonunda iştirakçılar Ordubad şəhər 1 nömrəli tam orta məktəbin şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiyaya baxmışlar.

* * *

Fevralın 21-də Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı da Xocalı soyqırımının 22-ci ildönümü ilə bağlı tədbir keçirmişdir. Tədbir iştirakçıları əvvəlcə Xocalı faciəsini əks etdirən fotosərgiyə baxmışlar.

Anım tədbirində Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Fazil Abbasov çıxış etmişdir.

Qeyd olunmuşdur ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni daşnaklarının terrorçu qrupu o zaman Xankəndidə yerləşən keçmiş sovet imperiyasının 366-cı motoatıcı alayının və xaricdən gəlmiş muzdlu erməni qatillərinin iştirakı ilə gecə Xocalı şəhərinə qəflətən hücum edərək yeddi min əhalisi olan şəhəri müasir hərbi texnika vasitəsilə yerlə-yeksan etmişlər. O gecə erməni qaniçənləri tərəfindən 613 nəfər qətlə yetirilmişdir ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar olmuşdur. Yaralanan 487 nəfərdən 76 nəfəri uşaqlar idi. Faciə zamanı 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Bu qanlı aksiya zamanı şəhərdə yaşayan əhalinin 1275 nəfəri erməni faşistləri tərəfindən əsir götürülmüşdür. 150 nəfər Xocalı sakinindən isə bu günə kimi xəbər yoxdur.

Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilməsindən də danışan təşkilat sədri vurğulamışdır ki, bu misligörünməmiş faciəyə hüquqi-siyasi qiymət verilməsi yalnız ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur.

Sonra Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Ehtimad Məmmədovun, birliyin üzvlərindən Leyli Həsənovanın və Ramidə Qasımovanın çıxışları olmuşdur.

Tədbirdə məktəblilərin ifasında Xocalı faciəsi ilə bağlı şeirlər bədii qiraət edilmiş, Xocalı soyqırımı haqqında sənədli film nümayiş olunmuşdur.

* * *

***Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Xocalı soyqırımının 22-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirmişdir.***

Əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov çıxış edərək bildirmişdir ki, Xocalı faciəsi bəşər tarixinin ən dəhşətli faciələrindən biridir. Bu faciə törədilərkən heç kimə fərq qoyulmadan – qocalar, uşaqlar, qadınlar xüsusi amansızlıqla qətlə yetirilmişlər.

Arif Qasımov ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra xalqımızın başına gətirilən fəlakətlər barəsində beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə dolğun məlumatlar çatdırılması ilə əlaqədar görülən işləri xatırlatmış və bildirmişdir ki, Xocalı faciəsi ilə əlaqədar son illər dünya ictimaiyyətinə ətraflı məlumat verilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilmişdir. Artıq dünyanın bir neçə ölkəsinin parlamentlərində Xocalı faciəsi müzakirə olunmuş və ermənilərin qəddarlığı ciddi narazılıq yaratmışdır.

Tədbirdə Yeni Azərbaycan Partiyası fəallarından Vüsalə Əliyeva, Yaşar Hacıyev, Vəfa Həsənova və başqaları çıxış edərək xalqımızın başına gətirilmiş müsibətlərdən danışmışlar.

Sonra tədbir iştirakçıları Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyində Xocalı soyqırımının 22-ci ildönümünə həsr olunmuş sərgiyə baxmışlar.

**Xəbərlər şöbəsi**

# Xocalı faciəsi rəssamların gözü ilə




Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Xocalı faciəsinin 22-ci ildönümü ilə əlaqədar sərgi təşkil edilmişdir. Sərgiyə baxışdan əvvəl birliyin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva və Azərbaycan Rəssamlar İttifaqının üzvü, Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Məhəmmədəli Ələkbərov çıxış edərək bildirmişlər ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı ilə birlikdə Xocalı şəhərini işğal edərək azərbaycanlılara qarşı soyqırımı törətmiş, yüzlərlə sakin bu vəhşiliyin qurbanı olmuş, əsir alınmış və itkin düşmüşdür. "Xocalı soyqırımı" kimi tarixə düşən bu qanlı hadisə bir daha erməni xislətini ortaya qoymuş, xalqımızın şüurunda dərin iz buraxmışdır.

Qeyd olunmuşdur ki, üzərindən illər keçsə də, Xocalı faciəsi heç zaman unudulmur, şəhidlərimizə diqqət və ehtiram əlaməti olaraq muxtar respublikada fəaliyyət göstərən rəssamlar öz yaradıcılıqlarında tez-tez bu mövzuya müraciət edirlər. Qəhrəmanlıq salnaməmizdə əks olunmuş bu əsərlər bir daha xalqımızın qan yaddaşını yeniləməklə bərabər, yetişməkdə olan gənc nəslin vətənpərvərlik tərbiyəsinin formalaşmasında da mühüm rol oynayır.

Sonra sərgiyə baxış olmuşdur.

Qeyd edək ki, sərgiyə 36 rəssamın 49 əsəri çıxarılmışdır.

# Ali təhsil ocağında tədbir



***Naxçıvan Özəl Universitetində Xocalı faciəsinin 22-ci ildönümünə həsr edilmiş elmi-praktik konfrans keçirilmişdir. Əvvəlcə Xocalıda şəhid olan soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.***

Universitetin tədris və elmi işlər üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli çıxış edərək bildirmişdir ki, Xocalı soyqırımı XX əsrin ən qanlı hadisələrindən biridir. Həmin gün amansız düşmən heç kəsə, hətta uşaqlara belə, aman verməmişdir. Əfsuslar olsun ki, o dövrkü rəhbərlik susaraq xalqımızın başına gətirilən bu bəlanın nə qarşısını almış, nə də ona siyasi-hüquqi qiymət vermişdir. Lakin ümummilli liderimiz Heydər Əliyev Naxçıvanda bu məsələnin siyasi qiymət almasına nail olmuşdur. Bu cinayətin soyqırımı kimi müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə əlaqədar ilk təşəbbüs də ulu öndərin adı ilə bağlıdır. Dahi rəhbərin səyi nəticəsində Milli Məclisdə qəbul edilən müvafiq qərardan sonra 26 fevral "Xocalı Soyqırımı Günü" kimi qeyd olunur.

Konfransda Humanitar elmlər kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Zamanov, universitetin mətbuat xidmətinin rəhbəri Nuray Əsgərova çıxış etmişlər.

Sonda tələbələrin Xocalıya həsr olunmuş şeirləri səsləndirilmiş və bu soyqırımdan bəhs edən sənədli film nümayiş etdirilmişdir.

# Yeniləşən və müasirləşən Naxçıvan səhiyyəsi



Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası



Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi



Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi







Şahbuz Rayon Mərkəzi Xəstəxanası

22 fevral Cəlil Məmmədquluzadənin doğum günüdür

## Ağa, mənim oğlum naxoşdu, bu saat ölüm halətindədi...

### *Muxtariyyətdən öncəki Naxçıvan səhiyyəsi "Molla Nəsrəddin" jurnalında*

– Ağa, mənim oğlum naxoşdu, bu saat ölüm halətindədi... Həyə inanmırsan, gəl, elə bu saat gedək öz gözlərinlə də gör ki, mən yalan demirəm. Niyə mənə nə olub, sinnimin bu vaxtında yalan deyim? Xeyr. Bə bir də ki, yalan niyə deyirəm? Əgər yalan desəm, adam başıma qəhətdi? Bir adam tapa bilmirəm, gərək elə gəlib səni tovlayam? Allaha and olsun!

"Danabaş kəndinin məktəbi" povestində Mirzə Cəlilin qüdrətli sənətkar qələmi ilə təsvir edilmiş bir epizodda maarif və mədəniyyət məsələsində qəti mövqeyi olan kəndlinin hökumət məmuru qarşısında andamanıdır bu. "Əsgərlik", "məktəb" sözlərindən şübhələnərək oğlunu ağılagəlməyən yerdə gizlətmiş kəndli öz yalanını ən inandırıcı amillə körükləyir. Çünki bu cəmiyyətdə xəstələnmək, ölüm halətində olmaq ən inandırıcı fakt, xəstə cəmiyyətin xəstə övladlar yetirməsi heç kəsdə şəkk-şübhə doğurmayan yeganə dəlil idi. İyirminci əsrin əvvəllərində meydana gələn "Molla Nəsrəddin" jurnalı cəmiyyətdəki epidemioloji vəziyyəti belə təsvir edirdi: "Hər yan tüstüdür; məclislərdə və evlərdə duxaniyyət və məşrubat tüstüsü, küçələrdə hamam tüstüsü, mənəviyyatda mövhumat tüstüsü, ruhda və qəlbdə kəsafət tüstüsü. Millət tüstü içində boğulmaqdadır və boğula-boğula nicata müntəzirdir.

– Kimdən?

– Hər bir vicdan sahibindən, hər bir həqiqi vətən dostundan, hər bir bəni-növ bəşərə rəhmi gələnlərdən".

Mirzə Cəlilin doğma vətənindəki mühit jurnalın təqdimatında daha tünd boyalarla öz əksini tapır. Şəhər başdan-başa antisanitariya vəziyyətindədir. Hər tərəf toz-torpaqlı, zığ-palçıqlıdır. Şəhərin duma rəisi balaqlarını dizə qədər çirmələmiş halda dəvə üstündə evdən vəzifə yerinə – şəhər idarəsinə gedir. Yeddi ildə xəzinəsinin suyu dəyişdirilən hamamın suyu iy verir, qoturlu və qotursuzlar birgə çarhovuzda yuyunur. Uşaqlar ölü pişiyin quyruğuna ip bağlayıb sürüyür, dərsə gedən şagirdlərin dalına düşüb onları hoydu-hoyduya götürür.

Məscidin üç addımlığında yerləşən bazarda türkəçarə dərmanlar satan qırmızısaqqal və mömin dükançı təsbeh əlində müştəriyə deyir: "Dünən Xoydan mənə altmış pud it qarası göndəriblər, hər kəs bir xörək qaşığı salıb içsə, hər dərdü-bəladan qurtarar və bundan başqa, iki yüz pişik pətənəsi bu günlərdə gələcək, keçəlliyi, çibanı, qarayaranı, traxomanı o saat sağaldacaq" ("Molla Nəsrəddin", 1907-ci il,12 avqust, №30).



**Bu, elə bir mücərrib davadır ki, hələ Firəngistanda da bunun mislini tapa bilməyiblər**
*("Molla Nəsrəddin" jurnalı, 1909-cu il)*

"Molla Nəsrəddin" jurnalı milli genefondu təhlükə qarşısında qoyan belə bir səhiyyə sistemini gələcəyə qoyulmuş bomba hesab edir, elə ilk nömrəsindən başlayaraq ona qarşı amansız mübarizə aparırdı. Jurnalda insanları narahat edən, düşündürən mövzular arasında səhiyyənin özünəməxsus yeri vardı. Mollanəsrəddinçilər adı ətrafında birləşən M.Ə.Sabir, Ü.Hacıbəyov, Ə.Haqverdiyev, Ə.Nəzmi və digərləri bir məfkurə altında xalqın, millətin yolunda müqəddəs iş görürdülər. Sonralar jurnalın ikinci redaktoru olmuş Əliqulu Qəmküsar 1909-cu ildə "Molla Nəsrəddin" jurnalının 33-cü nömrəsində nəşr etdirdiyi "Çirk" adlı felyetonunda 1908-ci ildə Naxçıvanda kütləvi yayılan qızdırma xəstəliyindən və ona qarşı aparılan müalicədən yazır. Burada Qəmküsarı düşündürən birinci məsələ zamanı üçün səhiyyənin müəyyən qədər inkişaf etdiyi bir dönəmdə "Naxçıvandakı bəndələrin" qəribə "türkəçarələridir". Bunu, sözün əsl mənasında, bir çarəsizlik kimi də qiymətləndirmək olar. Sözügedən xəstəlikdən yüzlərlə insan dünyasını dəyişib. Ancaq sakinlərin "yeganə ümid" hesab etdikləri "doktor" – "şəhərimizin vaizi molla Zülənam cənabları vəz əsnasında tərləyib və çirklənmiş köynəyinin tərini və çirkini onlara şəfa verdi. Belə ki, şəhərimizin hamı müsəlman övrətləri balaca şüşə götürüb axundgildən pul ilə o mücərrəb (təcrübədən keçirilmiş) davadan alıb hansı bir qızdırmalının canına və hansı boğazı gəlmişin boğazına sürtdülərsə, filfövr şəfa tapıb, canları bidin və laməzhəb rus həkimlərinin əlindən qurtardı. Əlhəmdülillah, bu il şəhərimizdə bir nəfər də qızdırmalı və naxoş tapılmır". Qəmküsarın dönə-dönə nifrətlə yad etdiyi, özünü Peyğəmbərin yadigarı hesab edən Mir Pırttaşıq, Molla Mahmud Çakər, Molla Zülənam kimi neçə-neçə Naxçıvanın "hikmət" sahibləri mühitin həqiqi təəssübkeşlərini düşmən sifətində görürdülər.

Jurnal öz səhifələrində mollaların, ara həkimlərinin və digər şarlatanların apardıqları türkəçarə "müalicə" üsullarını ifşa edib, onların nadanlığına iztehza edirdi. Çar Rusiyası dövründə müstəmləkə vəziyyətində olan Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan bölgəsində də iqtisadi və sosial gerilik, məişət və əmək şəraitinin aşağı səviyyədə olması, yoluxucu xəstəliklərə qarşı profilaktik tədbirlərin həyata keçirilməməsi, ümumiyyətlə, sağlamlığı qoruyan dövlət sisteminin olmaması nəticəsində tez-tez ağır epidemiyalar baş vermiş, kütləvi ölüm halları olmuşdur. Təkcə 1904-cü ilin 3 ayı ərzində vəba epidemiyası nəticəsində Naxçıvan və Şərur qəzalarında 1674 nəfər bu xəstəliyə tutulmuş, onlardan 1286 nəfəri, yəni 76,2 faizi ölmüşdü.

Dövrün məşhur maarifpərvər ziyalısı olan Məhəmməd Tağı Sidqi yaranmış bu vəziyyətə görə qəzəbini cilovlaya bilməyərək yazırdı: "Bu vətən bir gülə bənzəyir ki, onun gülabını tikanlar sorur, bir məhbubəyə bənzəyir ki, əğyarın ağuşundadır... Ona havadarlıq etdik, bizi söydülər, xeyirxahlıq etdik, bizi bədnam etdilər... Vətən, vətən, nə vətəndir bu, tüf belə vətənin valilərinə".

Naxçıvandan Qurbanəli Şərifzadə Sidqini dəstəkləyərək davam edir: "Bu vətən zəif və əlacsız xəstədir ki, onun canı bir neçə cahil və nadan təbibin əlində qalmışdır. Heç kəs onun sağalacağına ümid etmir".

Jurnal 1909-cu il 19-cu nömrəsində əhalinin içdiyi suyun təmizliyinə, ekoloji saflığına cavabdeh olan komissiya üzvlərinin rəyinə yer ayırıb: "Bəli, getdik, suya baxdıq, suyun üstü açıqdır, it-pişik düşsə də, yağış təmizləyir, bəli, biz izin veririk ki, içəsiniz".

"Molla Nəsrəddin" həmin il 40-cı nömrəsində qəzəblə yazır ki, yox, sərkari-mən, hər suyu içmək olmaz, istər yağış yağsın, istər yağmasın. Bir çayın başı azarlı vilayətlərdən axıb gələndə çayın aşağısında həkimlər onun suyunu içməyi qadağan eləyirlər.

"Mikroblar" felyetonunda yenə səhiyyə mövzusuna toxunan müəllif bildirir ki, bir naxoşun üstə həkim gələndə əvvəl biləyindən tutub nəbzini ölçər, sonra qulağını qoyar döşünə və deyər ki, sənin azarın, məsələn, qızdırmadır, yainki boğazağrısıdır. Əgər həkim bircə bu sözləri deyəndən sonra durub getsə, müalicə yolunu göstərməsə, biz həkimə çert qəpik də vermərik; amma həkim xəstənin azarını biləndən sonra qızdırmaya kinə verir, boğazı ağrıyanın boğazına yod sürtür, xolera tutana butin davası verir, yaralının yarasına yodform sürtür. Bu dərmanlar həşəratı puça çıxardır ki, axırda xəstə şəfa tapır.

Mirzə Cəlil və mollanəsrəddinçilər də o təbiblərə bənzəyirdilər ki, onlar fərdlərin deyil, bütövlükdə, cəmiyyətin nəbzinə baxıb naxoşluğuna diaqnoz qoyandan sonra börklərini götürüb "xudahafiz" deyərək getmir, əksinə, qərinələrlə millətin şirin canına daraşıb qanını soran, bədnam edən mikrobların kökünü kəsmək üçün çarə axtarırdılar. Amma neynəyəsən ki, "Molla Nəsrəddin" belə mətləblərdən söhbət açanda bu problemləri həll etməli olan məsul şəxslər arvadlar kimi boğma çıxardıb deyərdilər; "qadam ürəyinə, söz danışan!"

Bütövlükdə, jurnalın, demək olar ki, hər bir nömrəsində rast gəlinən səhiyyə mövzusu bədii və publisistik formada əksini tapır. Mövzuya dair çəkilən karikaturalarda tənqid birbaşa hədəfə ünvanlanır.

Naxçıvanda səhiyyənin dövlət səviyyəsində təşkilatlandığı 1924-cü ildən sonra isə bu sahədə görülən işlər muxtariyyətin bəhrəsi kimi dəyərləndirilir. Məsələn, jurnalın 1926-cı il 13-cü nömrəsindəki "Vəlvələ" adlı felyetonda bildirilir ki, 18 nəfər türk (azərbaycanlı) qadını mamalıq dərsini qurtarıb şəhadətnamə alıblar. Onlar Azərbaycanın qəzalarına, o cümlədən Naxçıvana dağılışanda vəlvələ törənəcək. Vəlvələyə düşənlər kim olacaq; əvvəla, küpəgirən qarılar. Səbəb budur ki, oxumuş, elm təhsil etmiş mamanı qoyub heç bir kəndli avam və nadan bir övrət xəlayiqini mamalığa çağırmayacaq. Məşədi və hacılar üzüaçıq türk mamalarını görəndə deyəcəklər: Allah sizə lənət eləsin! Allah sizin toxumunuzu yer üzündən kəssin.

"Molla Nəsrəddin"in "Cümhuriyyət"məqaləsində vətəndaşlara, öz oxucusuna xitabı, bütövlükdə, cümhuriyyət və muxtariyyətə münasibətin ifadəsi idi: – Vətəndaşlar, əgər bizdə insanlıq hissi əgər ölməyibsə, güman edirəm ki, ölməyib, o vədə gərək uca səs ilə cümhuriyyət qəhrəmanlarını alqışlayıb deyək:

– ***Yaşasın cümhuriyyət!***

**Hüseyn ƏSGƏROV**
***Naxçıvan Muxtar Respublikasının əməkdar jurnalisti***

## Boksçumuz qızıl medalın sahibi olub

***Fevralın 10-dan 18-dək Hövsan Olimpiya-İdman Kompleksində boks üzrə yeniyetmələr arasında keçirilən Azərbaycan birinciliyində naxçıvanlı dəri əlcək ustası Sərxan Əliyev qızıl medal qazanıb.***

38 komandadan 250-yə yaxın boksçunun qalibiyyət uğrunda mübarizə apardığı yarışda həmyerlimiz Sərxan Əliyev 50 kiloqram çəki dərəcəsində bütün görüşlərdə inamlı qələbə qazanıb. Daha bir idmançımız, 80 kiloqram çəki dərəcəsində birincilik uğrunda mübarizə aparan Nihad Orucov isə yalnız final görüşündə məğlub olaraq gümüş medalla kifayətlənib. Naxçıvan boks məktəbinin yetirməsi olan, 75 kiloqram çəki dərəcəsində mübarizəyə qatılan Toğrul İsmayıllı isə bürünc medal qazanıb.

**Xəbərlər şöbəsi**

## *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Sucaxan Novruzov Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Valeh Vəliyevə, əmisi
**MƏMMƏD VƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim kollektivi Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmova, əzizi
**HÜSEYNALININ**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Batabat Astrofizika Rəsədxanasının kollektivi Azad Məmmədliyə, əzizi
**DİLBƏR XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun kollektivi iş yoldaşları Fərman Xəlilova, əzizi
**RƏHMANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 199